DOI:10.30546/gdu.2023.216-220

UOT:37.

# MƏKTƏBƏQƏDƏR YAŞLI UŞAQLARDA TOLERANTLIĞIN FORMALAŞDIRILMASI ÜZRƏ PEDAQOJI SISTEMIN SƏMƏRƏLILIK MEYARLARI

***Qurbanova Səbinə Akif qızı***
***Gəncə Dövlət Universiteti***
***Ümumi pedaqogika kafedrasının dissertantı***
**sebine.qurbanova54gmail.com**

**Xülasə:** *Tədqiqat nəticəsində müəyyənləşdirilir ki, eksperimental qruplarda tərbiyəçi-müəllimlər "başqa" obrazın formalaşdırılmasına dair əldə olunmuş biliklər əsasında uşaqları mümkün qədər başqa mədəniyyət nümayəndəsindən olan həmyaşıdının obrazının yaradılmasına hazırlamış olurlar. Adətlərlə tanışlıq digər xalqların dəyərlərini, milli xarakterlərini, davranış xüsusiyyətlərini daha yaxşı başa düşmək imkanı verir. Aydındır ki, söhbət sadəcə "başqa" milləti mümkün qədər qəbul etməyə "hazır olmaq"dan getmir, bu həm də yaxınlıqda olan başqa mədəniyyət nümayəndələri, həmyaşıdları ilə münasibətlərin yaxşılaşdırılmasıdır.*

*Tədqiqatdan o da aydın oldu ki, uşaq bağçalarında vahid təlim-tərbiyə məkanının yaradılması tərbiyə olunanlarda tolerantlığın əsaslarının formalaşdırılması üçün müəyyənedici şərtdir.*

**Açar sözlər:** tolerantlıq, uşaq bağçalarında təlim-tərbiyə, millətlərarası münaqişə, tolerant dünyagörüş, digər xalqların dəyərləri, tolerantlığın əsasları

**Ключевые слова:**толерантность, образование и воспитание в детских садах, толерантное мировоззрение, межнациональный конфликт, ценности других народов, основы толерантности

**Key words:**tolerance, training and education in kindergartens, tolerant worldview, interethnic conflict, values of other peoples, foundations of tolerance

Uşaq bağçası şəraitində incəsənət vasitələrinin köməyi ilə böyük məktəbəqədər yaşlı uşaqlarda tolerantlığın əsaslarının formalaşdırılması üzrə eksperimental iş aparılmışdır. Eksperimental iş üç mərhələdə həyata keçirilmişdir. Təcrübi-eksperimental iş həm uşaqlarla, həm də onların valideyn və tərbiyəçiləri ilə də aparılmışdır. Əsasən "İncəsənət və tolerantlığın əsaslarının formalaşdırılması" adlı tərəfimizdən hazırlanmış metodikanı mənimsəmiş və təcrübəli pedaqoqların işinə xüsusi diqqət yrtirilmişdir. Bu metodik sistem ümumi pedaqoji xarakter daşıyır və tərbiyəçi – pedaqoqlar üçün nəzərdə tutulmuşdur. Metodik sistemin konsepsiyası tolerantlığın əsaslarının müəyyən olunmasına, tolerant davranış, "mədəniyyət dialoqu" və "mədəniyyətlərarası kommunikasiyalar" anlayışlarının izahına, həmçinin psixo-pedaqoji münasibətlərin müxtəlifliyi şəraitində pedaqoq tərəfindən real həyatda onların tətbiq olunmasına istiqamətlənmişdir.

Nəticədə pedaqoqların fəaliyyət təlimi dialoq mədəniyyətinin və mədəniyyətlərarası kommunikasiyasının inkişafına istiqamətlənmiş yeni problemli perspektivə çevrildi. Hazırlanmış metodikanın öyrənilməsi nəticəsində tərbiyəçi-müəllimlər və mütəxəssislər təcrübədə məktəbəqədər yaşlı uşaqların tolerantlıq tərbiyəsinin vacibliyini dərk etmək, məktəbəqədər yaşlı uşaqların tədris proqramına dialoq mədəniyyəti və mədəniyyətlərarası kommunikasiya məsələlərinin daxil edilməsini məntiqi cəhətdən başa düşmək imkanı əldə etdilər. Bunun sayəsində tərbiyəçi-müəllimlər tolerant tərbiyə alır, onlarda mədəniyyət dialoqu, onun təcrübədə tətbiqi haqqında təsəvvürlər formalaşır.

Hazırlanmış metodika tolerantlıq və dialoq mədəniyyətinin təşkili məsələlərini nəzərə almaqla istənilən məşğələnin təşkilində tərbiyəçi-müəllimin yaradıcı şəkildə öz yolunu

DOI:10.30546/gdu.2023.12

tapması prinsipləri üzrərində qurulmuşdur.

Praktiki məşğələlərin keçirilməsi zamanı diqqət xüsusilə tərbiyəçi-müəllimlər tərəfindən tolerantlıq, dialoq mədəniyyəti və mədəniyyətlərarası kommunikasiya məsələlərinin həlli yollarının yaradıcılıqla axtarılıb tapılmasına yönəldilmişdir. Bu zaman onların pedaqoji səriştəsinin səviyyəsini yüksəltmək, müstəqil elmi, pedaqoji və yaradıcı axtarışları stimullaşdırmaq çox vacibdir. Praktiki məşğələlərə aşağıdakılar daxildir: əvvəlcədən elan edilmiş mövzular əsasında pedaqoqlar tərəfindən hazırlanmış müəyyən məruzə və məlumatların müzakirəsi. Bu məşğələlərin tərkib hissəsini muzeylərə, kitabxanalara, bədii yaradıcılıq sərgilərinə və s. ekskursiyalar təşkil edir. Onların nəticələri əsasında tolerantlıq və mədəniyyət dialoqu məsələləri üzrə dəyirmi stolun (tərbiyəçi-müəllimlər və valideynlər üçün) təşkili, yaradıcılıq tapşırıqlarının yerinə yetirilməsi, uşaqların ekskursiya fəaliyyəti üçün proqramların hazırlanması nəzərdə tutulur.

Ekskursiyanın nəticəsi üzrə məşğələyə proqramların bir – yaxud da iki məruzəsini daxil edirlər. Müzakirə olunacaq məruzələrin mövzusu, həm də sayı dəyişkən ola bilər. Ona görə də proqramda məruzə olunacaq mövzulara və suala dair nümunələr verilmişdir.

İşin nəticələri onu göstərdi ki, pedaqoji praktika pedaqoji kollektivdən aşağıdakı istiqamətlərdə xüsusi işin aparılmasını tələb edir: maarifləndirici, yaradıcı və tətbiqi (treninqlər).

Hər üç istiqamət birgə, kompleks şəkildə həyata keçirilməlidir. Elmin və təcrübənin inkişafı nəticəsində əldə olunmuş ənənəvi maarifləndirmə iş forması XXI əsrin əvvəllərindən başlayaraq humanizm pedaqogikasının prinsiplərinin təbliğinə əsaslanmışdır. Yaradıcı istiqamət tərbiyəci-müəllimlərin davranışlarındakı daxili meyllərin formalaşdırılması və nəticədə kollektivdə yaradıcı atmosferin yaradılmasını nəzərdə tutur. Tətbiqi və yaxud da treninq formaya son onilliklərdə daha çox diqqət ayrılmışdır. Ətraf mühitin get-gedə daha çox etnik və mədəni müxtəlifliyə çevrildiyi situasiyalarda müəllim şəxsiyyətinin münaqişəsiz ünsiyyət bacarıqlarına yiyələnməsi çox vacibdir.

Tərbiyəçi-müəllimlərin və mütəxəssislərin təkmilləşdirilməsi işi ilə paralel uşaqlarla da iş həyata keçirildi. Tolerantlığın əsaslarının formalaşdırılmasına dair pedaqoji sistem işlənib hazırlandı və aprobasiya olundu. Böyük məktəbəqədər yaşlı uşaqlarda tolerantlığın əsaslarının formalaşdırılması üzrə pedaqoji sistemin səmərəlilik meyarları aşağıdakı kimi müəyyən olundu: mədəniyyətlərarası dialoqa hazır olmalı; məktəbəqədər yaşlı uşaqların əxlaq tərbiyəsi çoxmədəniyyətlilik tərbiyəsi çərçivəsində formalaşmalı; məktəbəqədər yaşlı uşaqların ünsiyyəti üçün informasiya məkanı onların təlim-tərbiyədə uğur əldə etmələrinə köməklik etməli; ünsiyyət üçün yeni situasiyalar yaradılmalı; uşaqların yalnız uşaq bağçasında deyil, həm də evdə, küçədə belə özlərini tolerant aparmalı; kitablarda, musiqidə, təsviri incəsənətdə əks olunmuş sosial və etik təcrübəni mənimsəmək üçün praktiki işlərə müraciət olunmalı; düzgün davranış yolunu tez tapmağa imkan verən müxtəlif ünsiyyət situasiyaları yaradılmalı.

Qeyd olunan meyarlar eksperimentin nəticə etibarı ilə səmərəliliyini müəyyən etmək imkanı verdi.

Kursun tərbiyəci-müəllimlər tərəfindən öyrənilməsinə həm fəaliyyət və hə də təlimedici hal kimi baxılır. Eyni zamanda təlim-tərbiyə prosesi sistemində pedaqoji situasiyaya mədəniyyət ötürücüsü kimi baxılır, fəaliyyət isə tolerantlığın əsaslarının formalaşdırılmasının başlıca şərti kimi qeyd olunur.

"İncəsənət və tolerantlığın əsaslarının formalaşdırılması" metodikası üzrə məktəbəqədər tərbiyə müəssisəsinin kollektivi ilə aparılan işi səmərəli təhlil etməkdə məqsəd gələcək pedaqoji təcrübə zamanı tətbiq olunacaq iş formalarının və metodlarının içərisindən ən əlverişlilərini seçməkdən ibarət olmuşdur. Tərbiyəci-müəllimlər üçün nəzərdə tutulmuş kursla paralel olaraq, böyük məktəbəqədər yaşlı uşaqlar üçün "İncəsənət və tolerantlığın əsasları"

DOI:10.30546/gdu.2023.216-220

adlı məşğələlər sistemi də işlənilib hazırlanmış və pedaqoji praktikaya tətbiq olunmuşdur. Sistemin əsasına tədqiqatçıların və tərbiyəci-müəllimlərin hazırladıqları metodiki işlər qoyulmuşdur [1, 3].

Böyük məktəbəqədər yaşlı uşaqlar üçün hazırlanmış "İncəsənət və tolerantlığın əsasları" adlı məşğələlər sistemi konsepsiyası böyük məktəbəqədər yaşlı uşaqların mütəxəssislərin, tərbiyəci-müəllimlərin və valideynlərin fəal əməkdaşlığını nəzərdə tutur ki, burada da əsas üstünlük qrup iş formalarına və oyun texnologiyalarına verilir. Belə ki, bir tapşırığın icrası zamanı hər qrupun iştirakçısına müəyyən xalqçılığın təsvir edilməsi nəzərdə tutulmuşdu (məkanı ənənəvi üslubda təchiz etmək; adət-ənənəvi mədəni xüsusiyyətləri açmaq; yaradıcılıq konkursları keçirmək; müxtəlif adətləri - ən çox geniş yayılmış qonaqpərvərliyi yenidən bərpa etmək (bu adət mədəniyyətlərarası tolerantlığın tərbiyəsi və formalaşması problemlərinə həsr olunmuş bir çox elmi tədqiqat işlərində təhlil olunmuşdur)).

Yeni kursun əsas vəzifəsi milli mədəniyyətlərin daha yaxşı öyrənilməsinə, uşaqların həmrəyliyinə və nəticə etibarı ilə müxtəlif mədəniyyət nümayəndələrinə qarşı tolerant münasibət formalaşdırmağa kömək edən konkret hal, həyat hadisələrinin praktikada, o cümlədən multikulturalizm şəraitində həllinin necə baş verdiyini göstərməkdir. Məşğələ oyun formasında təşkil olunur. Onun gedişindən söhbətlərdən və rollu situasiyaların müzakirəsindən fəal şəkildə istifadə edilir.

Məşğələlər sayəsində uşaqlar müstəqil məlumatlar əldə edib, onu ilkin təhlil etmək (gücəmüvafiq şəkildə) bacarıqlarına yiyələnməli, imitasiya hadisələri ilə "məşğul olmağı" öyrənməli, etnomədəni ünsiyyət şəraitində davamlı davranış alqoritimlərini mənimsəməlidir.

Kursun məqsədinə-müxtəlif mədəniyyət nümayəndələrinə tolerant münasibət formalaşdırılmasına nail olmaq üçün onların müsbət emosional obrazının yaradılması da daxil edilməlidir. Bunun üçün kursun tədrisi konsepsiyası təhsil prosesinin bütün subyektlərinin – tərbiyəci-müəllimlərin, mütəxəssislərin, uşaqların və onların valideynlərinin birliyi nəzərə alınmalıdır. Əsas praktiki tapşırıqlardan biri də Respublikamızın regionlarından Bakıya və ya Gəncəyə xarakterik multikulturalizm mühitinin yenidən qurulması (həm də modelləşdi-rilməsi) idi.

Qeyd olunmuş situasiyada problemin həlli üçün görülən işlərin nəticələri:

- Təhsil prosesinin bütün iştirakçılarının birliyi mədəniyyətlərarası hörmət və dözümlülüyün formalaşdırılması probleminin həllinə kömək edir;
- Özünün və başqalarının mədəniyyətini başa düşmək yolu ilə insanlar arasındakı fərqliliyi daha yaxşı başa düşür və qəbul edir;
- Müxtəlif xalqların nümayəndələri arasında qarşılıqlı anlaşma üçün tolerant münasibət (iş alqoritmi kimi) və xeyirxahlıq (emosional reaksiya kimi) vacibdir.

Kurs pedaqoq-valideynlərin və uşaqların birgə dərk etdikləri bütöv situasiyalar silsiləsi kimi təqdim olunur:

<u>İllüstrasiyalı-situasiya.</u> Müxtəlif yaş həddinin (iştirakçıların müxtəlif yaş tərkibi), mədəniyyətin, statusların (tərbiyəçi-tərbiyə olunanların) qarşılıqlı əlaqəsinə dair nümunə.

Kursun təhsil sistemi əhalinin çoxmillətli tərkibi, həm də bütövlükdə multikulturoloji məkanın nəzərə alınması üzrə qurulmuşdur. Kurs praktiki istiqamətli olduğu üçün onun tədrisində əsas yeri "çalışmalar" tutur, onlar isə pedaqoqlar üçün nəzərdə tutulmuş müxtəlif, daha dəqiq desək tipik vəziyyətlərə cavab verəcək öyrədici proqramlardır.

Bu hər şeydən əvvəl qiymətləndirici-situasiya və çalışmalı-situasiyadır. Bu iki situasiya kursun tədrisi konsepsiyasının qurulmasında "əsas", "aparıcı" yeri tutur (uşaq və yeniyetmələrlə iş apararkən universallığına görə çalışmalardan geniş istifadə olunur, təbii ki, yaşa görə dəyişiklər edilməklə). Valideynlərlə qarşılıqlı əlaqə sisteminin qurulmasının vacibliyi nəzərə alınmaqla böyük məktəbəqədər yaşlı uşaqlarla iş apararkən "qiymətləndirmə-

DOI:10.30546/gdu.2023.216-220

situasiyadan" da fəal şəkildə istifadə olunur.

Situasiya vasitəsilə mədəniyyətlərə nüfuz etmək üçün xüsusilə qonaqpərvərlik kimi adətin "yenidən bərpası"ndan istifadə olunur. Bu adətin seçilməsi onun bu və ya digər mədəniyyət nümayəndəsinin müsbət emosional obrazını formalaşdırmağa imkan verən unikal qalibiyyətə malik olması ilə şərtlənir.

Qiymətləndirmə-situasiyasından fərqli olaraq çalışmalı-situasiyalar müsbət obrazın yaradılmasına deyil, müəyyən situasiyalarda müəyyən davranış alqoritmlərinin tərtib olunmasına yönlənir. Bu səbəbdən də çalışmalı-situasiyalı vəziyyət üçün oyunlar layihələşdirilir.

Kursun bütün dinləyiciləri (iştirakçıları) müəyyən edilmiş situasiyalarda modelləşdirmənin köməyi ilə qiymətləndirmə və refleksiyada, səmərəli qarşılıqlı təsirin təşkilində, danışıqların aparılmasında, ünsiyyətin qurulmasında, münasibətlərin konkret həllində, işin təşkili və idarə olunmasında, vacib informasiyaların axtarılması və təhlilində "məşq etmək" imkanı əldə etdilər. Bununla belə məşğələnin digər əsas məqsədi situasiya iştirakçılarında ümumiləşmiş müsbət emosional "başqa" obrazın və etnomədəni ziddiyyətlə bağlı yaranacaq münaqişəli situasiyalarda davranış alqoritminin formalaşdırılmasından, əldə olunmuş bilik və bacarıqların fəallıqla praktikaya tətbiq olunmasından ibarətdir. Buna görə də tərbiyəci-müəllimlər üçün nəzərdə tutulan müstəqil kurs böyük məktəbəqədər yaşlı uşaqlar üçün nəzərdə tutulan ayrıca kursla müqayisə olunur. Ona görə də tərbiyəci-müəllimlər üçün nəzərdə tutulmuş kursdan sonra böyük məktəbəqədər yaşlı uşaqlar üçün nəzərdə tutulmuş xüsusi kurs keçirilir.

İncəsənət dərsləri ilə inteqrasiya olunmuş kursun həyata keçirilməsi həm giriş hissəni, həm də kursun dəqiqliklə iş üzrə mərhələlərə bölünməsini nəzərdə tutur.

Məşğələyə hazırlıq informasiyaların toplanılmasına və yenilənməsinə istiqamətlənmiş (məktəbəqədər yaşlı uşaqların yaş xüsusiyyətləri nəzərə alınmaqla) fərdi və kollektiv işi, tədbirlərin təşkilini və uşaqların öz fəaliyyətlərini idarə etmələrini (böyük məktəbəqədər yaşlı uşaqların gücünə müvafiq şəkildə) özündə birləşdirir.

Mövzu üzrə materialın seçimi gedişində fərdi və kollektiv iş formalarının birgə tətbiqi həyata keçirildi. Uşaqlar valideynləri və tərbiyəçiləri ilə birlikdə nəzərdə tutduqları xalqın tarixinə, ölkəsinin xüsusiyyətlərinə, milli mədəniyyətinə, geyim nümunələrinə, oyun, musiqi, rəqs, adət-ənənələrinə dair məlumatlar toplayırlar (bədii oxu, milli diaspor nümayəndələrinin dəvət olunması, sözü gedən mədəniyyət nümayəndələri ilə görüş). Müzakirələrin gedişində (kollektiv iş forması zamanı) bilik mübadiləsi, eyni zamanda məsul şəxslər tərəfindən yaradıcılıq tamaşası üçün materialın seçilməsi, "qonaqlar" qarşısında "öz" mədəniyyətlərinin nümayiş etdirilməsi baş verir. Bu mərhələdə həm də xalq folklorunun öyrənilməsi (mahnı, rəqslər), kreativ nömrəyə hazırlıq, stansiyanın tərtibatı (bu zaman milli qonaq otaqlarından istifadə oluna bilər) və milli üslubda qrup otaqları, milli geyimlərin hazırlanması özünü göstərir.

Beləliklə, hazırlıq mərhələsində "başqa" obrazın formalaşdırılmasına dair əldə olunmuş biliklər əsasında uşaqlar mümkün qədər başqa mədəniyyət nümayəndəsindən olan həmyaşıdının obrazını yarada bilməyə hazırlanırlar. Belə ki, adətlərlə tanışlıq digər xalqların dəyərlərini, milli xarakterlərini, davranış xüsusiyyətlərini daha yaxşı başa düşmək imkanı verir. Aydındır ki, söhbət sadəcə "başqa" milləti mümkün qədər qəbul etməyə "hazır olmaq"dan getmir, bu həm də yaxınlıqda olan başqa mədəniyyət nümayəndələri, həmyaşıdları ilə münasibətlərin yaxşılaşdırılmasıdır.

Deməli, uşaq bağçasının vahid təlim-tərbiyə məkanının yaradılması tərbiyə olunanlarda tolerantlığın əsaslarının formalaşdırılması üçün müəyyənedici şərtdir. Məktəbəqədər və ümumtəhsil müəssisələrinin vahid təlim-tərbiyə kompleksində birləşməsi ayrıca regionda

DOI:10.30546/gdu.2023.216-220

tolerantlıq tərbiyəsi ilə məşğul olan subyektlərin tərkibini genişləndirir.

### Ədəbiyyat

1. Бутов А.Ю., Фоменко А.В. Проблема толерантности в контексте социокультурной адаптации // Теоретико-методологические аспекты организации диалога культур в образовательной среде. Сборник научных трудов / Сост. Д.В. Поль, Т.Г. Мельник, Э.И. Иванова, И.Л. Масандулова. - М.; ИХО РАО, 2019. - с.16-25.
2. Добролюбов Н.А. О значении авторитетов в воспитании // Педагогические сочинения. - М., 2009. - с.136-137.
3. Ильин И.А. Собрание сочинений в 10 т.Т. 1 / Сост., вступ. ст. и коммент. Ю.А. Лисицы. -М.,2006. - с.158.
4. Касьянова Е.И. Социально-философские основания толерантности // Автореф. дисс….. доктора философских наук. - Чита, 2014. - 45с.

## КРИТЕРИИ ЭФФЕКТИВНОСТИ ПЕДАГОГИЧЕСКОЙ СИСТЕМЫ ФОРМИРОВАНИЯ ТОЛЕРАНТНОСТИ У ДЕТЕЙ ДОШКОЛЬНОГО ВОЗРАСТА

***Курбанова Сабина Акиф кызы***

***Резюме***

В результате исследования установлено, что воспитатели-педагоги экспериментальных групп максимально готовили детей к созданию образа сверстника из другой культуры, основываясь на полученные знания о формировании «другого» образа. Знакомство с обычаями дает возможность лучше понять ценности, национальные черты и особенности поведения других народов. Понятно, что речь идет не только о «готовности» максимально принять «другую» нацию, но и об улучшении отношений сосверстниками и представителями других культур.

В результате исследования выяснено, что создание единого образовательного и воспитательного пространства в детских садах является определяющим условием для формирования основ толерантности у детей.

## CRITERIA FOR THE EFFECTIVENESS OF THE PEDAGOGICAL SYSTEM FOR FORMING TOLERANCE IN PRESCHOOL CHILDREN

***Gurbanova Sabina Akif***

***Summary***

As a result of the study, it was established that the teacher educators of the experimental groups prepared children as much as possible to create an image of a peer from another culture, based on the knowledge gained about the formation of a "different" image.Familiarity with customs makes it possible to better understand the values, national traits and behavioral characteristics of other peoples. It is clear that we are talking not only about the "readiness" to accept the "other" nation as much as possible, but also about improving relations with peers and representatives of other cultures.

As a result of the study, it was established that the creation of a unified educational space in kindergartens is a determining condition for the formation of the foundations of tolerance in children.

***Rəyçi: prof. Şahin Tağıyev***
***Ümumi pedaqogika kafedrasının 13 sentyabr 2023-cü il tarixli iclasın 03 saylı protokolu***
***Daxil olma tarixi***